# Regional müşavirə

***İsmayıllıda Yeni Azərbaycan Partiyası rayon və ərazi ilk təşkilat sədrlərinin iştirakilə regional müşavirə keçirilib.***

Müşavirədə rayonumuzdan YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov və ərazi ilk təşkilat sədrləri iştirak ediblər. Tədbirdə Azərbaycan Respublikası Baş Nazirinnin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini–icra katibi Əli Əhmədov məruzə edib. Məruzə və çıxışlarda ölkə başçısının siyasəti nəticəsində ölkəmizin uğurla inkişaf etdiyi vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığı bildirilib. Qeyd olunub ki, bu ilin əvvəlindən dövlət başçısı tərəfindən mühüm sosial islahatlar həyata keçirilib və bunun nəticəsində ölkəmizdə əməkhaqları, təqaüdləri və sosial müavinətlər əhəmiyyətli dərəcədə artırılıb.

Müşavirədə iştirakçılara partiya həyatı ilə bağlı tövsiyə və tapşırıqlar verilib.

**«Qəbələ»**

# Payızlıq əkin kampaniyasına mütəşəkkilliklə başlanılıb

***Rayonunun təsərrüfatlarında gələn ilin məhsulu üçün payızlıq dənlilərin əkininə başlanılıb. Cari mövsümdə rayonda 19 min 500 hektar sahədə payızlıq dənlilərin əkini proqnozlaşdırılır.***

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elmdar Şərifovun mùxbirimizə verdiyi məlumata görə kampaniyanın ilk günlərindən indiyədək rayonun Bum, Vəndam, Nic qəsəbələrinin, Kürd, Bayramkoxalı, Məmməağalı, Həmzəli kəndlərinin təsərrüfatlarında 15 min hektardan çox sahədə şum çıxarılıb. Sahələrin şumlanmasına 32-dək şum traktoru cəlb edilib.



Səpində iştirak edəcək traktor və toxumsəpən aqreqatlar təmir olunaraq saz vəziyyətə gətirilib. Ayrılmış buğda və arpa toxumu təmizlənərək dərmanlanıb. Taxıl səpininin aqrotexniki qaydada və optimal müddətdə başa çatdırılması üçün bütün tədbirlər görülüb.

**"Qəbələ"**

# Oduncaq tədarükü davam edir

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzi tərəfindən qazlaşdırılmamış ucqar dağ kəndlərinin əhalisi və burada yerləşən məktəblərin odun yanacağı ilə təmin olunması üçün planlaşdırılan oduncağın tədarükü davam edir. Mərkəz tədarük olunan odunun dəyərinin ödənilməsi şərtilə mütəxəssislər tərəfindən təyin olunmuş ünvanlarda odun satışını həyata keçirir.

Tədarük olunan oduncaq ilk növbədə məktəblərə, həkim və feldşer məntəqələrinə və oduna çox ciddi ehtiyacı olan vətəndaşlara verilir.

Təhsil Nazirliyinin 4 saylı ərazi Maliyyə Hesablaşma Mərkəzi tərəfindən rayondakı təhsil müəssisələrinin oduna olan tələbatı dəqiqləşdirilmişdir. Maliyyə hesablaşma Mərkəzi Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzi ilə birlikdə məktəblərin ehtiyacına uyğun şəkildə odun tədarükünü davam etdirir.

**"Qəbələ"**

# Fermerlər üçün təlim keçirilib

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin baytar mütəxəssisləri tərəfindən Qəbələ rayon Dövlət Aqrar İnkişaf Mərkəzində heyvandarlıq sahəsində fəaliyyət göstərən bir qrup fermerə "Xırdabuynuzlu heyvanların çiçək xəstəliyinin profilaktikası və bu xəstəliyə qarşı mübarizə tədbirləri" mövzusunda təlim keçirilib.

Təlimdə çiçək xəstəliyinin etiologiyası, patogenizi, kliniki əlamətləri, davametmə müddəti və mübarizə tədbirləri barədə geniş məlumat verilib və xırdabuynuzlu heyvanlarda xəstəliyin diaqnostikası, profilaktikası və müalicəsinin dövlət vəsaiti hesabına aparıldığı xüsusi qeyd edilib.

Təlim çərçivəsində xüsusi təhlükəli xəstəliklərə qarşı ölkədə tətbiq olunan vaksinləşmənin əhəmiyyətindən danışılıb. Heyvandarlıqla məşğul olan fermerlərin qatıldığı təlimdə mövsümlə əlaqədar qeydə alınan xəstəliklər və onlarla mübarizə üsulları, heyvanların cins tərkibinin yaxşılaşdırılması, yemləmə, bəsləmə qaydaları, profilaktik tədbirlərin vaxtlı-vaxtında icrası və digər mühüm əhəmiyyətə malik məsələlər barədə məlumatlar verilib.

Sonda fermerləri maraqlandıran suallar cavablandırılıb və geniş fikir mübadiləsi aparılıb.

**"Qəbələ"**

# Məşvərət şurası yaradılıb

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin nəzdində Məşvərət Şurasının yaradılması ilə bağlı görüş keçirilib.***

***Görüşdə Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin, Dövlət Turizm Agentliyinin, Dövlət Məşğulluq Xidmətinin, həmçinin 30-dan artıq özəl sektorun nümayəndələri iştirak ediblər.***

Görüşdə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ilə regionda fəaliyyət göstərən özəl sektor arasında əməkdaşlığı gücləndirmək məqsədilə yaradılan məşvərət şurasının əsasnaməsi müzakirə olunaraq təsdiq edilib. Bildirilib ki, şura ilk mərhələdə tədris planlarının razılaşdırılması, kurikulumlara baxılması və təkmilləşdirilməsi, tələbələrin qiymətləndirməsinin müəssisələr tərəfindən aparılması, karyera mərkəzinin, məktəbdə müəssisə guşələrinin yaradılması kimi fəaliyyətləri həyata keçirəcək.

Görüşdə ED VET layihəsi çərçivəsində kənd təsərrüfatı və turizm ixtisaslarının tədris planları nəzərdən keçirilib, üzvlərin iştirakı ilə razılaşdırılıb.

**"Qəbələ"**

# 2019-cu ilin yanvar-iyun aylarında Qəbələ rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

(Əvvəli ötən saylarımızda).

**Nəqliyyat, informasiya və rabitə**

2019-cu ilin yanvar-iyun ayları ərzində rayonda avtomobil nəqliyyatı ilə yük daşınması əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,6 faiz və ya 14,0 min ton, sərnişin daşınması isə 3,1 faiz və ya 135,0 min sərnişin artmışdır.

Rayonda 2019-cu ilin yanvar-iyun ayları ərzində nəqliyyat və anbar təsərrüfatı üzrə cəmi məhsul buraxılışı 2349,7 min manat olmuşdur ki, bunun da 1906,8 min manatı və ya 81,2 faizi fiziki şəxslərin payına düşür.

Hesabat dövründə fiziki şəxslər tərəfindən nəqliyyat sektorunda 1906,8 min manat həcmində iş və xidmətlər göstərilmişdir. Bu göstərici 2018-ci ilin müvafiq dövrünə nisbətən 4,7 faiz və ya 85,8 min manat artmışdır. Həmin iş və xidmətlərin 750,5 min manatı və ya 39,4 faizi yük daşınmasının, 1156,3 min manatı və ya 60,6 faizi isə sərnişin daşınmasının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrünə nisbətən 2019-cu ilin yanvar-iyun aylarında fiziki şəxslər üzrə məhsul buraxılışında yük daşınması 0,4 faiz və ya 2,8 min manat, sərnişin daşınması isə 7,7 faiz və ya 83,0 min manat artmışdır.

Rayonda fəaliyyət göstərən rabitə müəssisələri tərəfindən 2019-cu ilin yanvar-iyun aylarında əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 599,1 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz və ya 27,5 min manat çox rabitə xidməti göstərilmişdir. Göstərilən rabitə xidmətlərinin dəyərinin 577,4 min manatı və ya 96,3 faizi əhali tərəfindən ödənilmişdir. Hesabat dövründə rayon əhalisinə göstərilmiş poçt xidmətlərinin həcmi isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz və ya 4,4 min manat çoxalaraq 147,5 min manat olmuşdur.

Hesabat dövründə rayonda informasiya və rabitə xidmətlərindən əldə olunan gəlirin 347,4 min manatı internet xidmətlərindən, 218,0 min manatı şəhər-kənd telefon rabitəsi üzrə xidmətlərdən, 30,7 min manatı şəhərlərarası və beynəlxalq telefon rabitəsi üzrə xidmətlərdən, 3,0 min manatı isə digər xidmətlərdən daxil olmuşdur.

2019-cu ilin yanvar-iyun ayları ərzində informasiya və rabitə fəaliyyət növü üzrə çalışan işçilərin orta sayı 103 nəfər, orta aylıq nominal əmək haqqı isə 322,7 manat müəyyən olunmuşdur. İşçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,0 faiz artmışdır.

**Yanacaq-enerji təchizatı və kommunal xidmətlər**

2019-cuilin yanvar-iyun aylarında dövlət büdcəsindən maliyyələşdirilən istehlakçılar 2736,5 min kvt.saat elektrik enerjisi, 816,6 min kub metr təbii qaz, 24,8 min kub metr su və 36,8 min manatlıq rabitə xidmətindən istifadə etmişlər.

İstehlakın ümumi dəyərinin 53,2 faizini elektrik enerjisi, 33,9 faizini təbii qaz, 5,0 faizini su, 7,9 faizini rabitə xidmətləri təşkil etmişdir.

2019-cu ilin yanvar-iyun ayları ərzində dövlət büdcəsindən maliyyələşdirilən istehlakçılar elektrik enerjisi,istilik enerjisi, təbii qaz, su və rabitə xidmətləri üzrə təyin edilmiş limitdən qənaətlə istehlak etmiş, istehlak etdikləri kommunal və rabitə xidmətləri dəyərinin 462,5 min manatını ödəmişdir.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə (dəyər ifadəsində) elektrik enerjisinin istehlakı 28 faiz,təbii qazın istehlakı 51,6 faiz,suyun istehlakı 1,8 faiz artmış,rabitə xidmətlərinin istehlakı 12,3 faiz azalmışdır. İstehlak edilmiş kommunal və rabitə xidmətlərinin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 102.6 min manat və ya 28,0 faiz artaraq 463,3 min manat olmuşdur.

**Əhalinin məşğulluğu və yeni iş yerlərinin açılması**

2015-cu il tarixdən 01 iyul 2019-cu ilə tarixədək olan dövr ərzində rayonda 6974-ü daimi olmaqla 6974 yeni iş yeri yaradılmışdı. Yeni yaradılmış daimi iş yerlərinin 320-sı yeni yaradılmış müəssisə və təşkilatlarda, 1383-i mövcud müəssisə və təşkilatlarda, 91-i fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 5180-ı fiziki şəxslərdə olmuşdur.

2019-cu ilin yanvar-iyun aylarında rayonda 1090 nəfər işaxtaran vətəndaş Məşğulluq Mərkəzinə müraciət etmiş, onlardan 540 nəfər müxtəlif peşələrə və ixtisas yerlərinə işə düzəlmişdir. Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatda olan aztəminatlı ailələrdən 46-sı özünəməşğulluq layihəsinə cəlb olunmuşdur.

Ümumiyyətlə, 2019-cu ilin yanvar-iyun ayları ərzində rayonda 854 yeni iş yeri açılmışdır ki, onların 854-də daimidir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**

# Qafqaz albanlarının 2500 yaşlı varisləri

*Udilərin zəngin tarixi və mədəniyyəti saxta erməni təbliğatını ifşa edən əsas mənbələrdir*

(Əvvəli ötən saylarımızda).

"Məlumatlara əsasən, işğal altında olan alban kilsələrinin bəziləri, Ermənistan tərəfindən böyük vəsait sərf edilərək bərpa edilir. Onların bu addımlarının altında da məkrli niyyətlərinin olduğu gün kimi aydındır" söyləyən Robert Mobili deyir ki, ermənilər bunu alban kilsələrinin vəziyyətinə ürəkləri yandığı üçün deyil, sabah həmin torpaqlar işğaldan azad olunanda "tarixi" torpaqları olduğunu iddia etmək üçün "zəmin" hazırlayırlar: "Buna görə də Azərbaycandakı digər alban məbədləri də bərpa olunmalıdır. Ermənilərin əsas bəhanələri dindir. Hətta onları fakt qarşısında qoyanda "Albaniya böyük Ermənistanın içində olub" deyirlər. Amma tarixi həqiqətdən qaçmaq olmaz və alban Apostol kilsəsinin mövcudluğunu danmaq mümkün deyil. Alban mədəni irsini bir tərəfdən dövlət, alimlər müdafiə etməli, digər tərəfdən dini rəhbərlər olmalıdır. İllərdir udiləri də erməni kimi tanıyırdılar. Çünki bu cür siyasət həm Ermənistana, həm də Rusiyaya sərf edirdi. Biz bir tərəfdən özümüz bu mədəniyyəti ermənilərə vermişik, digər tərəfdən də bu işi bizim əlimizlə görüblər".

Ermənilər hətta alban əlifbasını da Mesrop Maştotsun (erməni dilçisi) yaratdığını iddia edirlər. Halbuki dünya alimləri alban əlifbasının Mesrop Maştotsdan yüz il əvvəl yaradıldığını sübut ediblər. Bu tarixi materiallar (Sinay palimpsestlər), Nicdə "Çotari" kilsəsində var.

Robert Mobili diqqətə çatdırır ki, bir müddət əvvəl ermənilər UNESKO-da xaçkar məsələsi ilə bağlı səsvermə keçirmək istəyirdilər, hətta onlar iddia edirdilər ki, harada xaçkar varsa, ora Ermənistan ərazisidir: "Azərbaycandan məni də dəvət etdilər, çünki xaçkarların albanlara məxsus olduğu iddiasını qaldırmışdım.Tarixi faktları onların diqqətinə çatdırdım, bundan sonra səsverməni saxlayıb bizim iddianı qəbul etdilər".

"Mənim xalqımın 99 faizi öz dilində danışır. Biz necə əriyə bilərik?!"

Robert Mobili məlumat verir ki, avropalı alimlər Azərbaycana gələndə mütləq udilərlə maraqlanırlar. Onlar əsasən udilərin xristian olması ilə deyil, ətrafı tamamilə islam olan bir xalqın öz dil və dinini necə qoruyub saxlaması ilə maraqlanırlar:

(Ardı gələn sayımızda).